# Arzular çin olduqca

(Əvvəli 6-cı səhifədə).

Keçən ilin əvvəllərində süni intellekt arxitekturası ilə əlaqəli ilk eksperiment uğurla tamamlanmışdır. Bir neçə ay sonra İngiltərənin ən tanınmış avtonom maşınlar şirkətlərinlən olan "Wayve"in bu ideyanın daha da irəli versiyasını öz real avtonom sürücüsüz avtomobillərinə tətbiq etmişdir. Bu mexanizm sərnişinin avtomobilə olan güvənini artırır və avtonom maşının hərəkət zamanı təhlükəsizlik qərarlar verib-vermədiyini təhlil etməyə imkan verir.

Valideynləri - atası Xanlar və anası Firuzə xanım rayonumuzun peşəkar həkimləridirlər. Şahinin qardaşı da ixtisasca həkim, bacısı isə müəllimdir. Ziyalı ailənin ziyalı övladı olan Şahin özü də ailəlidir, həyat yoldaşı da müəllimdir. Onun 2 yaşlı bir övladı var.

Şahin öz doğma ölkəsinin adını həmişə ucaldır; öz bacarığı və vətənpərvərliyi, mənəvi zənginliyi ilə. O, gələcəkdə vətənə qayıtmaq arzusundadır. Onun fikrincə daha çox təcrübə toplamaq və öz ölkəsində bu təcrübəsini tətbiq etmək lazımdır.

O, Azərbaycana qayıdarsa, süni intellekt sahəsində çalışan şirkətlə və ya tədqiqat institutunda işləmək arzusundadır.

Arzuların daima reallaşsın, Şahin!

Siz bizim qürur və fəxrimizsiniz!

**Mirhəsən AĞAYEV,**
**təqaüdçü müəllim,**
**Bibixanım İSAYEVA,**
**"Qəbələ"nin əməkdaşı**

# "Qərbi Azərbaycan manifesti gəncliyin gözü ilə"

Gənclər Mərkəzi İctimai Birliyi tərəfindən "Qərbi Azərbaycan manifesti Gəncliyin gözü ilə" adlı layihə çərçivəsində tədbir keçirilib. Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində keçirilən tədbirdə çıxış edənlər Qərbi Azərbaycanın tarixi, mədəni irsi, tarixi şəxsiyyətləri, hüquqi sənədləri, müxtəlif illərdə həyata keçirilən deportasiya və bu müddət ərzində vətəndaşlarımızın doğma yurd-yuvasına qayıtmasını şərtləndirən məsələlərdə ictimai rolun artırılması haqqında danışmışlar. Sonda layihə çərçivəsində hazırlanan sənədli film nümayiş olunmuş və tədbir iştirakçılarına bukletlər, dərs ləvazimatları və sertifikatlar təqdim edilmişdir.



# Yaşıl dünya naminə iməcilik



"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Qəbələ şəhərində növbəti dəfə iməcilik keçirilmişdir. İməcilik zamanı magistral yollar, park və xiyabanlar təmizlənmiş, ağaclar budanmış, məişət tullantıları üçün nəzərdə tutulmuş konteynerlər və onların ətrafı təmizlənərək daşınmışdır.

Tədbirdə rayon icra hakimiyyətinin əməkdaşları, idarə, müəssisələrin kollektivləri, sahibkarlar və rayon könüllüləri iştirak etmişlər.

# Yanğın təhlükəsizliyinə diqqət etməli

Yeni il şənliklərində və insanların kütləvi toplaşdıqları digər yerlərdə tədbirlər keçirilən zaman:

ən azı iki ehtiyat çıxış qapısı qoyulan, tikinti norma və qaydalarına tam cavab verən, 2 mərtəbədən yuxarı olmayan və yanmayan arakəsmələri olan binalarda tədbir keçirilməsinə icazə verilir;

bəzəkli şam ağacı qurularkən yerə möhkəm bərkidilməli və elə qurulmalıdır ki, ağacın budaqları divara, tavana dəyməsin;

otaqlarda işıqlandırma sistemi olmadıqda tədbir yalnız gündüzlər keçirilməlidir;

şam ağacının bəzədilməsində istifadə olunan lampalar ardıcıl qoşulmalı və bu zaman gərginlik 12 voltdan, cərəyan 25 vatdan artıq olmamalıdır;

əgər elektrik təsərrüfatında nasazlıq yaranarsa (naqillərin qızması, lampaların yanıb-sönməsi, qığılcım çıxması və s.), cərəyan dərhal ümumi dövriyyədən ayrılmalıdır.

**Qadağandır:**

otaqların pəncərələrində dəmir barmaqlıqlar olduqda tədbirlərin keçirilməsi;

atəşfəşanlıq məqsədilə partlayıcılardan, güclü projektorlardan, şamlardan, fişənglərdən və digər yanğın təhlükəli işıqlandırıcı maddələrdən istifadə edilməsi;

şam ağacının bəzədilməsi zamanı selloiddən hazırlanmış oyuncaqlardan, o cümlədən odadavamlı məhlul hopdurulmayan cuna pambıqdan istifadə olunması;

uşaqlara tezalışan materiallardan tikilən kostyumların geyindirilməsi;

tədbir zamanı qaynaq, rəngləmə və digər yanğıntörədici partlayış təhlükəli işlərin görülməsi;

oturacaqların ara məsafəsinin azaldılması, əlavə stul və kreslolar qoyaraq cərgəarası keçidlərin bağlanması;

tamaşa vaxtı zalın işığının tam söndürülməsi;

nəzərdə tutulduğundan artıq insanların zala buraxılması;

yanğın təhlükəsizliyinə cavabdeh olan növbətçilərin və yanğın təhlükəsizliyi orqanı əməkdaşlarının olmadığı zaman tədbirlərin keçirilməsi.

# Ağacəkmə

"Yaşıl Dünya Naminə Həmrəylik ili" elan edilməsi ilə əlaqədar 24 dekabr 2024-cü il tarixində 15 lər əkilmişdir. Tədbirdə Qəbələ Rayon İcra Hakimiyyətinin, 15 saylı Regional Meşə Təsərrüfatının, 6 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin, Şahdağ Milli Parkının Qəbələ bölmə-



saylı Regional Meşə Təsərrüfatı Mərkəzinin təşəbbüsü ilə Yenikənd meşəbəyliyinin 4 saylı dolayının 32-ci kvadratında 0,50 ha ərazidə nar cinsinə məxsus tingsinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Nəqliyyat İdarəsinin 6 saylı İsmayıllı Reğional şöbəsinin əməkdaşları və könüllülər iştirak etmişlər.

# Ən maraqlı yeni il adətləri

Cənubi Afrikada yerli əhali yeni ildə şans və bərəkət üçün köhnə ev əşyalarını pəncərədən atır.

Kolumbiyada ili səyahətlərlə keçirmək üçün bayram günü çəmodanla gəzirlər.

Yaponiyada ilin təhvil verildiyi heyvanın maskasını taxaraq 108 dəfə zəng çalınan məbədə toplaşırlar.

Danimarkalılar köhnə boşqab və bardaqları yaxınlarının qapısına atırlar. Yeni il günü isə onlar stuldan tullanırlar. Bununla da pis ruhların getdiyinə və yeni ilin onlara uğur gətirəcəyinə inanırlar.

İspanlar saat 00:00-da 12 üzüm giləsi yeyirlər. 12 üzüm giləsi ayları və uğuru simvolizə edir.

Finlandiyada ərimiş metalı suya tökürlər. Əldə edilən fiqura baxaraq gələn ili proqnozlaşdırmağa çalışırlar. Məsələn, ürək və dairə evliliyə işarədir.

Panamada xüsusi hazırlanan kuklalar yeni il tonqalında yandırılır. Kukla köhnə ili təmsil edir. Onların yandırılması isə pis ruhların uzaqlaşdırılması və yeni başlanğıc deməkdir.

Filippində masada olan hər şeyin yuvarlaq olmasına diqqət edirlər. Çünki yumru forma pulu simvolizə



edir. Bu isə zənginlik əlamətidir.

Estoniyada inanclara görə, yeni il günü bir insan 7 növ yemək yesə 7 nəfərin gücünə sahib olacaq.

Braziliya, Ekvador, Venesuela, Boliviyada yeni ildə rəngli alt geyimi geyinirlər. Bunun onlara şans gətirəcəyinə inanırlar. Məsələn qırmızı sevgi, sarı isə zənginlik deməkdir.

Peruda Yeni ildə Takanakuy festivalı keçirilir. Yeni il gecəsi insanlar bir birini yumruqlayır. Bununla Yeni ilə daha rahat girəcəklərini düşünürlər.

Rumıniyada qəpikləri çaya atır və bunun uğur gətirəcəyinə inanırlar.

Boliviyada şirniyyatların içərisinə pul qoyurlar. Kimə bu pullu şirniyyat düşsə il onun üçün daha uğurlu olacaq.

Çilidə insanlar yaxınlarının məzarı başında gecələyirlər.

Sibirlilər yeni ildə buzlu suya girirlər.

**"Qəbələ"**




**QƏBƏLƏ**

**qəzetinə**

***2025-ci ilin birinci yarısı üçün abunə yazılışı davam edir.***

**Yarımillik abunə qiyməti 20 manatdır.**

***Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.***

***Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.***

**Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).**

**Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.**




Qış lövhədəri.

# İTMİŞDİR

Qəbələ şəhər sakini **Səlimov Mais Sərxan oğlunun** adına olan "MERKURİ-130", 00216601 zavod nömrəli **kassa aparatı itdiyi üçün** etibarsız sayılır.